**Oktyabrın 31-də Qərbi Azərbaycan İcmasında səhiyyə sahəsində görkəmli təşkilatçı, Əməkdar həkim, ictimai xadim, Azərbaycan SSR Ali Sovetinin deputatı, II Dünya müharibəsinin iştirakçısı, Sosialist Əməyi Qəhrəmanı Şamama Ələsgərovanın 120 illik yubileyinə həsr edilmiş konfrans keçirildi.**





# Cəfakeş həkim, unudulmaz ictimai xadim

Əvvəlcə Şamama xanım Ələsgərovanın keçdiyi şərəfli həyat yolu və misilsiz nailiyyətlərindən bəhs edən videoçarx təqdim olundu. Sonra konfransı giriş sözü ilə açan **QAİ Qadınlar Şurasının sədri, Milli Məclisin deputatı Məlahət İbrahimqızı** Şamama Ələsgərovanın zəngin səhiyyə irsinə və ömür yoluna toxunaraq bildirdi ki, o səhiyyə sahəsində tədqiqatlarını əsasən ana və uşaqların sağlamlığının qorunmasına, ginekoloji xəstəliklərin müalicə və profilaktikasına həsr etmiş, respublikamızda malyariya və helmintoz xəstəliklərinə qarşı mübarizə tədbirlərinin fəallarından biri olub. Qeyd olundu ki, Qərbi Azərbaycanın İrəvan şəhərində anadan olan Ş.Ələsgərova ilk təhsilini gimnaziyada alıb. Azərbaycan Tibb İnstitutunu bitirdikdən sonra 1941-ci ildə cəbhəyə yollanan cəsarətli və nümunəvi həkim 1958-ci ildə "Səhiyyə əlaçısı" iki il sonra respublikanın Əməkdar həkimi adına layiq görülüb. Həmçinin 1905-1907-ci illərdə Əməkdar həkimin, İrəvan şəhərinin görkəmli ailələrin, Qərbi azərbaycanlıların məruz qaldığı vandallıqla üzləşdiyi də bildirildi. Məlahət İbrahimqızı vurğuladı ki, şərəfli və zəngin yol keçmiş Azərbaycan səhiyyəsi Prezident İlham Əliyevin və Mehriban xanım Əliyevanın yüksək diqqət və qayğısı ilə əhatə olunub.

Daha sonra Şamama xanım Ələsgərova haqqında çəkilmiş 9 dəqiqəlik film nümayiş olundu. Filmdə Əməkdar həkimin pasiyentləri ilə olan müsahibələr, çalışdığı xəstəxana ilə bağlı məlumatlar yer alıb.

**Qərbi Azərbaycan İcması Ağsaqqallar Şurasının sədri, Milli Məclisin deputatı Əhliman Əmiraslanov** Şamama xanımın səhiyyə sahəsində əldə etdiyi uğurların nümunəvi xarakter daşıdığını vurğulayaraq bildirdi ki, əmək fəaliyyətinə




məhz müharibə illərindən başlayan Ş.Ələsgərova Azərbaycan SSR Xalq Səhiyyə Komissarlığında şöbə müdiri, kadrlar idarəsinin rəisi vəzifələrində çalışmış, 1945-ci ildən etibarən ömrünün sonunadək (02.06.1977) N.Krupskaya adına 5 saylı doğum evinin (hazırda həmin doğum evi Şamama Ələsgərovanın adını daşıyır) baş həkimi olub. Xəstəxana nəzdində Şamama xanımın təşəbbüsü ilə Azərbaycan Tibb Universitetinin mama-ginekologiya fakültəsi yaradılıb. Yüksəkixtisaslı, dünya miqyasında tanınan bir çox həkimlərimiz bu fakültədə təhsil alıb. Əhliman Əmiraslanov həmçinin Şamama xanımla bağlı bir çox xatirələrini də bölüşdü. O qeyd etdi ki, 1969-cu ildə, Sosialist Əməyi Qəhrəmanı adı almağın çox çətin olduğu bir zamanda Ş.Ələsgərova bu adı alaraq Azərbaycanda yüksək ada layiq görülən ilk səhiyyə işçisi olub.

Tədbirdə çıxış edən **İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyətinin sədri Zaur Əliyev** Şamama xanımın öz işinin xüsusi incəliklərinə yaxşı bələd olduğunu, bu gün də tibb sahəsində onun təcrübəsindən geniş istifadə edildiyini bildirdi. Qeyd etdi ki, Şamama xanımın fədakarlığı və əzminin hər zaman yaddaşlarda qalacağını, onun fəaliyyətinin tələbələr üçün unudulmaz olduğunu vurğuladı.

**Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin İcraçı direktoru Vüqar Qurbanov** isə bildirdi ki, Şamama Ələsgərova sadəcə bir həkim deyil, həm də səhiyyə sahəsində təşkilati işləri ilə fərqlənən, yüksək mənəvi keyfiyyətlərə malik bir şəxsiyyət idi. Şamama Ələsgərova İkinci Dünya müharibəsi zamanı 416-cı Taqanroq diviziyasında tibbi briqadaya rəhbərlik edərək yaralı əsgərlərə yardım göstərib, insanların həyatını qorumaq üçün yorulmadan çalışıb. Qələbə ilə başa çatan Vətən müharibəsində də qadın həkimlərimiz böyük cəsarətlə vəzifələrinin öhdəsindən şərəflə gəlmiş və öz adlarını Şamama xanımın davamçıları kimi Zəfər tariximizə yazdırıblar.

**Qərbi Azərbaycan İcması İdarə Heyətinin üzvü, professor, ictimai xadim Dilarə Seyidzadə** bildirdi ki, Qərbi Azərbaycanın İrəvan şəhərindən olan Şamama Ələsgərova cəsur və savadlı səhiyyə işçisi olmaqla yanaşı, yüksək insani keyfiyyətlərə malik olub, əsl Azərbaycan xanımına xas xüsusiyyətləri özündə birləşdirib.

Tədbirdə iştirak edən **Şamama Ələsgərovanın nəvəsi, professor Lalə Cəfərova** isə Şamama xanımla bağlı xatirələrini bölüşərək dedi ki, belə bir parlaq şəxsiyyətin nəvəsi olmaqdan qürur duyur. Nənəsi ilə bağlı xatirələrini də bölüşərək, onun işinə nə qədər bağlı bir həkim olduğunu dedi. O, həmçinin qeyd etdi ki, Şamama xanım ictimai işlərdə də yüksək fəallıq göstərib, Azərbaycan SSR Ali Sovetinin IX çağırış deputatı olub, "Şərəf nişanı" ordeni və digər medallarla təltif edilib. Lalə Cəfərova sonda konfransın təşkilatçılarına ailələri adından təşəkkürünü də bildirdi.

**Ləman TƏHMƏZ,**
**"Respublika".**